Non official translation / Qeyri-rəsmi tərcümə

# MƏHKƏMƏLƏR TƏRƏFİNDƏN HƏDDİNDƏN ARTIQ FORMALİZM



AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARININ İCRASI DEPARTAMENTİ

DG1

**TEMATIK BÜLLETEN**

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Tematik bülleten

**Aprel 2023-cü il**

# MƏHKƏMƏLƏR TƏRƏFİNDƏN HƏDDİNDƏN ARTIQ FORMALİZM

Bu xülasələrin hazırlanmasına yalnız Avropa Məhkəməsinin Qərarlarının İcrası Departamenti cavabdehdir və onlara görə Nazirlər Komitəsi heç bir şəkildə cavabdehlik daşımır.


*1. Həddindən artıq formalist prosedur qaydaları ... 3*
*2. Prosessual tələblərin həddindən artıq formal şərhi ... 4*
*3. İddia müddətinin məhkəmələr tərəfindən qiymətləndirilməsi ... 7*
*4. Məhkəmə rüsumlarının ödənilməsi ... 9*
*5. Kargüzarlıq səhvləri ... 10*
*6. Həbslə bağlı həddindən artıq formal qərarlar ... 11*
*İŞLƏRİN SİYAHISI ... 12*

Avropa Məhkəməsi Konvensiyanın mətninin əksər hissəsinin əsasını təşkil edən qanunun aliliyi və hakimiyyət səlahiyyətindən sui-istifadəyə yol verməmək prinsiplərinə istinad edərək qeyd etmişdir ki, məhkəməyə müraciət etmək hüququ İnsan hüquqları haqqında Avropa Konvensiyasında təsbit olunmuş təminatların ayrılmaz aspektidir. Məhkəməyə müraciət hüququ "nəzəri və ya xəyali" deyil, "praktik və səmərəli" olmalıdır.

Yuxarıda qeyd olunan hüquqa qoyulan mümkün məhdudiyyətlər fərdin məhkəməyə müraciət hüququnu onun mahiyyətinə xələl gətirəcək şəkildə və ya o dərəcədə məhdudlaşdırmamalıdır. Bundan əlavə, əgər məhdudiyyət qanuni məqsəd daşımırsa və istifadə edilən vasitələrlə nail olmaq istənilən məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi yoxdursa, məhdudiyyət Konvensiyaya uyğun sayılmayacaq. Bunu nəzərə alaraq, Avropa Məhkəməsi qeyd edib ki, prosessual normaları tətbiq edərkən məhkəmələr məhkəmə prosesinin ədalətliliyinə xələl gətirəcək həddən artıq formalizmdən çəkinməlidirlər.

Hazırkı Tematik bülletendə Avropa Məhkəməsinin aşağıdakı konkret məsələlərə diqqət yetirməklə qərarlarının icrası kontekstində dövlətlər tərəfindən barəsində məlumat verilən ümumi və fərdi tədbirlərə dair nümunələr təqdim edilir: həddindən artıq formalist prosedur qaydaları; prosessual tələblərin həddindən artıq formal təfsiri; iddia müddətinin məhkəmələr tərəfindən qiymətləndirilməsi; məhkəmə rüsumlarının ödənilməsi; kargüzarlıq səhvləri; və həbslə bağlı həddindən artıq formalist qərarlar.

*Azərbaycan dilinə qeyri-rəsmi tərcümə ingilis dilindəki orijinal mətnin əsasında icra olunmuşdur.*
*Bu tərcümə Avropa Şurasının Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti (QİD) ilə razılaşma əsasında, lakin yalnız tərcüməçinin(lərin) məsuliyyət daşıması ilə və QİD-in öhdəlik daşımaması ilə dərc olunur. Mətnin tərcüməsi Avropa Şurasının "Avropa Məhkəməsi qərarlarının Azərbaycan tərəfindən icrasının gücləndirilməsinə dəstək" layihəsi çərçivəsində həyata keçirilmişdir.*

# 1. Həddindən artıq formalist prosedur qaydaları

| | |
|---|---|
| Bu iş Kassasiya Məhkəməsinin ərizəçi şirkətə məhkəmə rüsumlarının ödənilməsinə möhlət verilməsindən imtina etməsi ilə bağlı idi və belə əsas gətirilmişdi ki, Mülki Prosessual Məcəllə kommersiya qurumları üçün belə bir güzəşti qadağan edir, bu isə şirkətin kassasiya şikayətinin qüvvədə saxlanılması barədə qərara baxılmaması və müəyyən vergi cərimələrinin tətbiqi ilə nəticələndi.<br>Məhkəmənin qərarından sonra işin icraatı təzələndi Vergi Müfəttişliyinin və Kommersiya Məhkəməsinin sonradan gəldiyi qənaətlər nəticəsində müəyyən edildi ki, ərizəçi şirkət vergi qanunvericiliyinin tələblərini yerinə yetirməyib.<br>2009-cu ildə Mülki Prosessual Məcəllədə kommersiya qurumlarının məhkəmə rüsumlarının ödənilməsində möhlət hüququndan kənarlaşdırılması ləğv edildi. Eyni zamanda, “Dövlət rüsumu haqqında” qanunun müvafiq müddəası da ləğv olundu. | **ERM / Paykar Yev Haghtanak (21638/03)**<br>**Yekun qərar: 02/06/2008**<br>***Yekun qətnamə CM/ResDH(2011)185*** |
| Bu iş hüquqi məsələlərlə bağlı şikayətlərin yalnız Kassasiya Məhkəməsində iş aparmaq üçün lisenziyası olan vəkillər tərəfindən verilə biləcəyi ilə bağlı prosessual tələblə əlaqədar idi. Məhkəmə hesab etdi ki, belə bir prosessual tələbin yerinə yetirilməsi üçün pulsuz hüquqi yardım göstərilməsinin mümkünsüzlüyü Kassasiya Məhkəməsinə müraciət hüququnu ərizəçinin maddi vəziyyətindən asılı hala salır.<br>2008-ci ildə Konstitusiya Məhkəməsi Mülki Prosessual Məcəllənin və "Vəkillik haqqında" Qanunun, habelə Cinayət Prosessual Məcəlləsinin və Məhkəmə Məcəlləsinin müvafiq müddəalarını Konstitusiyaya zidd hesab etdi və pulsuz hüquqi yardım olmadan yalnız lisenziyalı vəkillərin Kassasiya Məhkəməsində çıxış edə biləcəyi barədə qaydanı ləğv etdi.<br>Bundan əlavə, 2015-ci ildə Konstitusiya Məhkəməsi digər müvafiq normaları, o cümlədən, İnzibati Xətalar Məcəlləsinin digər müddəalarını araşdıraraq, tərəfin yalnız vəkil vasitəsilə Kassasiya Məhkəməsinə müraciət edə biləcəyi qaydanın konstitusiyaya zidd olduğunu müəyyən etdi və bir daha vurğuladı ki, hüquqi tələb yalnız qanunvericilik bütün maraqlı tərəflərin pulsuz hüquqi yardımdan faydalanmaq imkanını nəzərdə tutduğu halda qanuni sayılır. | **ERM / Shamonyan (18499/08)**<br>**Yekun qərar: 07/10/2015**<br>***Yekun qətnamə CM/ResDH(2016)104*** |
| Bu işdə Məhkəmə müəyyən etdi ki, ərizəçinin kassasiya məhkəməsinə müraciət etmək hüququ onun hüquqi yardım haqqında müraciətinin rədd edilməsi ilə yanaşı, hüquqi mədələlər üztə şikayətinin təmin edilməməsi səbəbindən qeyri-mütənasib şəkildə məhdudlaşdırılıb ki, bu da onun məhkəmə iclasına gəlməməsi səbəbindən şikayətinin qəbuledilməz elan olunmasını qaçılmaz edib.<br>4689/2020 saylı Qanunda nəzərdə tutulmuşdur ki, kassasiya şikayətinin qəbuledilənliyi daha apellyasiya şikayəti üzrə hüquqi yardım barədə müraciətlərin qəbul edilməsi üçün zəruri şərt sayılmır. | **YUN / Peca (№ 2) (33067/08)**<br>**Yekun qərar: 10/09/2010**<br>***Yekun qətnamə CM/ResDH(2020)258*** |

## 2. Prosessual tələblərin həddindən artıq formal şərhi

Bu işdəki hədsiz formalizm onunla əlaqədar idi ki, Dövlət Şurası ərizəçi assosiasiyanın tikinti icazəsinə baxılması üçün vəsatətini qəbuledilməz elan edərək belə əsas gətirmişdi ki, vəsatətdə faktlar əks olunmayıb və Dövlət Şurası və işə baxan hakimə yetərincə məlumat təqdim edilməyib.
Məhkəmə digər məsələlərlə yanaşı qeyd etdi ki, ərizəçi birlik faktların təfərrüatlı ifadəsini özündə əks etdirən tikinti icazəsi barədə qərarı öz ərizəsinə əlavə edib və bundan daha əhatəli məlumat təqdim edə bilməzdi. 2011-ci ildə Dövlət Şurasının sədri təsdiq etdi ki, Məhkəmənin qərarı ona verilən ərizələrin qəbuledilənliyinin qiymətləndirilməsində həddindən artıq formalizmi qadağan edən son presedent hüququnun formalaşmasına təkan verib. Fəaliyyət hesabatında məhkəmə təcrübəsinin konkret nümunələri təqdim edilmişdir.

**BEL / L'Erablière A.S.B.L. (49230/07)**

**Yekun qərar: 24/05/2009**

***Yekun qətnamə CM/ResDH52013)224***

---

Bu iş ölkədaxili məhkəmə tərəfindən "Media haqqında" Qanuna əsasən ərizəçinin diffamasiya iddiasının rədd edilməsi ilə bağlı idi, səbəb isə bu idi ki, onun qanuni nümayəndəsi naşirdən mübahisəli açıqlamaya düzəliş edilməsini tələb edərkən guya etibarnamə təqdim etməyib.
2014-cü ildə Konstitusiya Məhkəməsi öz presedent hüququnda dəyişiklik etdi və bu qənaətə gəldi ki, "Media haqqında" Qanuna əsasən, iddiaçıların nümayəndələrinin mübahisələndirilən məlumatlarda düzəliş edilməsi üçün qarşı tərəfin məlumat dərc etməsini tələb edərkən vəkalətnaməni əlavə etmədikləri əsas gətirilərək mülki iddiaların qəbuledilməz elan edilməsi məhkəməyə müraciət hüququnu pozub. Nəticədə 2017-ci ildə Ali Məhkəmənin presedent hüququnda dəyişiklik edildi. Qərar məlumat üçün bütün birinci instansiya və apellyasiya məhkəmələrinin hakimlərinin diqqətinə çatdırıldı.

**XOR / Buvač (47685/13)**

**Yekun qərar: 06/09/2018**

***Yekun qətnamə CM/ResDH(2019)72***

---

Bu işdə Məhkəmə apellyasiya şikayəti barədə bildirişin başlığının düzgün qeyd edilməməsinə görə (hərçənd ki, bu hal həmin bildirişin apellyasiya şikayəti barəsində olduğunun müəyyən edilməsinə mane olmurdu) Ailə işləri üzrə Apellyasiya Məhkəməsinin ərizəçinin şikayətinə mahiyyəti üzrə baxılmasından həddən artıq formal səbəbdən imtina etməsi ilə əlaqədar olaraq ərizəçinin məhkəməyə müraciət hüququna qeyri-mütənasib maneə yaradıldığını müəyyən etdi.
2016-cı ildə ailə işləri üzrə məhkəmələrin prosedur qaydalarında dəyişiklik edildi və apellyasiya şikayətlərinin yeni formaları tətbiq edildi. Bundan əlavə, Ailə işləri üzrə Apellyasiya Məhkəməsi həddindən artıq formalizmin qarşısını almaq üçün öz presedent hüququnu vəziyyətə uyğunlaşdırdı. Məhkəmə qərarı tərcümə olundu, dərc edildi və müxtəlif hakimiyyət orqanlarına, o cümlədən Ali Məhkəməyə, Ədliyyə və İctimai Asayiş Nazirliyinə, Vəkillər Assosiasiyasına və Parlamentin Hüquq məsələləri və insan hüquqları komitələrinə göndərildi.

**KİP / Savvides (14195/15)**

**Yekun qərar: 14/12/2021**

***Yekun qətnamə CM/ResDH(2022)318***

---

Bu iş Ali Məhkəmənin şikayətin qəbuledilməzliyinə dair qərarı ilə bağlı idi, o, ərizəçiyə yeni meydana çıxan hər hansı çatışmazlığı aradan qaldırmaq imkanı vermədən, kassasiya şikayəti barədə bildiriş üçün formal tələblərin yeni şərhinin qüvvəsini avtomatik olaraq geriyə tətbiq etmişdi.
Məhkəmənin qərarından sonra ərizəçi mübahisələndirilən icraatın təzələnməsini xahiş etdi. 2022-ci ilin martında Ali Məhkəmə ərizəçinin ilkin olaraq rədd edilmiş kassasiya şikayətini qəbul etməyə razılaşaraq, ərizəçinin işə yenidən baxılması barədə şikayət ərizəsini təmin etdi.
7/2015-ci il tarixli Orqanik Qanunla kassasiya şikayətinə dair qanunvericilik bazasında dəyişikliklər edildi, apellyasiya şikayət barədə bildirişin mətni dəqiqləşdirildi və əvvəlki mümkün hüquqi qeyri-müəyyənlik aradan qaldırıldı.

**İSP / Gil Sanjuan (48297/15)**

**Yekun qərar: 26/05/2020**

***Yekun qətnamə CM/ResDH(2022)278***

---

Kassasiya şikayətlərinin qəbul edilməsinə dair Ali Məhkəmənin son presedent hüququndan nümunələr hazırkı qərarda Avropa Məhkəməsinin təsdiq etdiyi prinsiplərin presedent hüququna daxil edildiyini göstərir.

**İSP / Stone Court Shipping Company, S.A. işlər qrupu (55524/00)**

**Yekun qərar: 28/01/2004**

***Yekun qətnamə CM/ResDH(2012)100***

Bu işlər qrupu mülki məhkəmə icraatında Ali Məhkəmə və Konstitusiya Məhkəməsi tərəfindən prosessual normaların ziddiyyətli və ya xüsusilə sərt şəkildə şərh edilməsi səbəbindən məhkəməyə müraciət hüququnun rədd edilməsi ilə bağlı idi.

Bu aparıcı işdə ərizəçilər dövlətin məsuliyyətə cəlb olunması üçün iddia qaldırmaq imkanına malik idilər. Müvafiq mülki məhkəmə icraatının təzələnməsi hüquqi müəyyənlik prinsipi səbəbindən mümkün olmamışdı.

Məhkəmənin qərardan sonra Konstitusiya Məhkəməsi ərizənin və ya apellyasiya şikayətinin qəbuledilənliyi məsələsinə dair qərarın kifayət qədər əsaslandırılıb-əsaslandırılmadığını, əsassız olub-olmadığını, açıq-aydın səhvin nəticəsi olub-olmadığını və ya prosessual qaydaların həddən artıq sərt təfsir edilib-edilmədiyini qiymətləndirmək üçün meyarlar müəyyən etdi. Bundan əlavə, o, müstəsna halları müəyyən etdi ki, bu zaman prosessual qaydalara əməl edilməməsi avtomatik olaraq müvafiq ərizə və ya apellyasiya şikayətinin qəbuledilməzliyi elan edilməsi ilə nəticələnmir, buraya tərəfin və ya onun vəkilinin lazımi səy göstərməsinin, işin mürəkkəbliyinin və apellyasiya şikayətinin verilmə müddətlərinin nəzərə alınması daxildir. Avropa Məhkəməsinin məhkəmə təcrübəsinə istinad edərək, həm Konstitusiya Məhkəməsi, həm də Ali Məhkəmə müvafiq presedent hüququndan son nümunələri təqdim etmişlər.

**FRA / Duceau (29151/11)**

**Yekun qərar: 30/09/2016**

***Yekun qətnamə CM/ResDH(2017)342***

Bu iş prosessual normalara əməl edilmədən yeni vəkilin təyin edilməsi ilə əlaqədar olaraq cinayət prosesində mülki iddiaçının şikayətinin təmin edilməməsinə aid idi.

Pozuntu işin konkret hallarından və xüsusən də Cinayət Prosessual Məcəlləsinin 115-ci maddəsinin məhkəmələr tərəfindən tətbiqində həddindən artıq formalizmə yol verilməsindən irəli gəlmişdi. Yerli məhkəmələrin diqqətini bu məsələyə dair prosessual normanın tətbiqində konkret və ölçülüb-biçilmiş yanaşmanın qəbul edilməsi zərurətinə cəlb etmək məqsədilə Məhkəmənin qərarı dərc edilərək Ədliyyə Nazirliyinə və digər aidiyyəti orqanlara paylanıldı.

**FRA/ Henrioud (21444/11)**

**Yekun qərar: 05/02/2016**

***Yekun qətnamə CM/ResDH(2016)249***

Bu iş uşaqların geri qaytarılması ilə bağlı beynəlxalq məhkəmə icraatı çərçivəsində ərizəçinin hüquqi məsələlər üzrə şikayətinin Apellyasiya Məhkəməsi prokurorunun təqsiri ucbatından formal səbəblərə görə Kassasiya Məhkəməsi tərəfindən rədd edilməsinə aid idi.

Fərdi tədbir olaraq, işin halları baxımından icraatın təzələnməsi üçün vəsatət verilməsinə ehtiyac yox idi, belə ki, uşaqlardan biri 2016-cı ilədək yetkinlik yaşına çatmışdı və boşanma müqaviləsi ərizəçiyə yetkinlik yaşına çatmayan digər uşağa baş çəkmək və onunla birlikdə olmaq hüququ verirdi.

2014-cü ildə müvafiq prosessual normalar fərmanla ləğv edildi: Mülki-Prosessual Məcəllənin 979-cu maddəsi artıq mübahisələndirilən qərardan apellyasiya şikayəti vermək üçün Kassasiya Məhkəməsinin Reyestrinə rəsmi məlumat verilməsini tələb etmir və bununla da şikayətin qəbuledilməz elan olunması kimi qeyri-mütənasib cəza aradam qalxmış olur. Məhkəmənin qərarı dərc edilmiş və müvafiq yerli məhkəmələrə paylanılmışdır.

**YUN / Liakopoulou (20627/04)**

**Yekun qərar: 23/10/2006**

***Yekun qətnamə CM/ResDH(2009)68***

**YUN / Alvanos və başqaları (38731/05)**

Bu işlərin hər ikisində Məhkəmə müəyyən etdi ki, şikayətçilərin kassasiya şikayətini şikayət üçün əsasların "qeyri-müəyyənliyi" ilə bağlı presedent hüququ prinsipinə görə rədd etməklə, Kassasiya Məhkəməsi qaldırılan konkret məsələləri həll etməmiş, bununla da ərizəçilərin məhkəməyə müraciət etmək hüququna əsassız maneə yaradılmışdır.

Birinci qərardan sonra və Avropa Məhkəməsinin presedent hüququnun Yunanıstan hüququna bilavasitə təsirini nəzərə alaraq, qərarların dərci və bütün məhkəmə orqanlarına çatdırılması ümumi icra tədbiri kimi yetərli sayıldı. Bununla belə, 2010-cu ildə Kassasiya Məhkəməsinin Plenumu kassasiya şikayətlərinin qəbuledilənlik meyarlarına dair rəsmi qərar çıxardı və

| | |
|---|---|
| müvafiq olaraq, öz presedent hüququnda dəyişiklik edərək bütövlükdə kassasiya şikayətlərinin qəbuledilənliyinin qiymətləndirilməsinə ədalətli şəkildə və yumşaq formada yanaşmaq məqsədilə müvafiq məruzəçi hakimləri öz səlahiyyətlərindən istifadə edib müəyyən səhvləri düzəltmək və korrektələr etmək səlahiyyətindən istifadə etməyə çağırdı. | **Yekun qərar: 20/06/2008**<br>***Yekun qətnamə CM/ResDH(2016)178*** |
| Bu iş Kassasiya Məhkəməsi tərəfindən birinci ərizəçinin hüquqi məsələlər üzrə şikayətinin bu cür şikayətlərin tərtib edilməsi meyarlarına cavab vermədiyi üçün qəbuledilməz elan olunması ilə əlaqədar idi və bu qərar belə əsaslandırılmışdı ki, ərizəçinin arqumentlərində nə təsdiqedici sənədlərə istinad, nə də barəsində şikayət edilən qüsurların adları göstərilib.<br>2022-ci ildə bu qərarı nəzərə alaraq Kassasiya Məhkəməsinin Plenumu bildidi ki, Mülki Prosessual Məcəlləyə uyğun olaraq kassasiya şikayətinin yetərliliyi prinsipi mübahisələndirilən hüququn mahiyyətinə təsir edən həddən artıq formalist şəkildə şərh edilməməlidir. Kassasiya Məhkəməsinin 2022-ci ildə çıxardığı bir neçə oxşar qərardan nümunələr təqdim edildi. | **İTA / Succi və başqaları (55064/11)**<br>**Yekun qərar: 28/01/2022**<br>***Fəaliyyət hesabatı DH-DD(2022)1329*** |
| Bu işlər qrupunda Məhkəmə müəyyən etdi ki, kassasiya şikayətinin tərtib edilməsində Kassasiya Məhkəməsinin tələb etdiyi dəqiqlik onun şikayətlərə baxa bilməsi üçün vacib deyildi və məhkəmə prosesində iştirak edən şəxslərin hüquqlarının müdafiəsini əhəmiyyətli dərəcədə zəiflətmişdi.<br>2010-cu ildə 1885-ci il tarixli "Kassasiya şikayətləri və proseduru haqqında" qanuna belə bir dəyişiklik edildi ki, kassasiya şikayətinin mətninə "nəzərə alınmalı olan hüquqi dəyişikliklər əlavə edilə bilər", amma bu işin faktları araşdırıldığı zaman belə bir dəyişiklik hələ yox idi. Bu dəyişikliyə əsasən, Kassasiya Məhkəməsinin presedent hüququna aid formal tələblərin şərhi yüngülləşdirdi. Beləliklə, kassasiya şikayətində əksini tapmayanlar da daxil olmaqla hüquqi dəyişikliklər Kassasiya Məhkəməsi tərəfindən nəzərə alınır və lazımi qaydada təhlil edilir. Bundan başqa, dəyişikliklərin mətnində kassasiya şikayətləri üzrə ixtisaslaşmış vəkillər assosiasiyasının olmaması məsələsinə də toxunulub, kassasiya şikayəti verilərkən yerinə yetirilməli olan rəsmiyyətlərin ətraflı izahını verilib və bununla da kassasiya şikayətlərinə xas olan rəsmiyyətlərə riayət olunmasının asanlaşdırılmasına şərait yaradılıb. | **LÜK / Kemp və başqaları işlər qrupu (17140/05)**<br>**Yekun qərar: 24/07/2008**<br>***Yekun qətnamə CM/ResDH(2012)93*** |
| Bu iş vəkillə təmsil olunmadan, öz adından şikayət vermək hüququnun olmaması ilə əlaqədar olaraq şikayətin Ali Məhkəmə tərəfindən təmin edilməməsi ilə əlaqədar idi, halbuki ərizəçinin özü vəkil idi.<br>14.12.2014-cü ildə Ali Kassasiya Məhkəməsi ərizəçiyə mübahisələndirilən icraata yenidən başlamaq hüququ verdi və işə mahiyyəti üzrə baxdı.<br>16.12.2010-cu ildə Konstitusiya Məhkəməsi hüquqi məsələlər üzrə şikayəti Ali Məhkəmə tərəfindən təmin edilməyən vəkillə bağlı işdə ədalətli məhkəmə araşdırması hüququnun pozulduğunu müəyyən etdi. Bundan əlavə, 2011-ci ildə "Mülki icraat haqqında" Qanunun mübahisələndirilən müddəasına belə bir düzəliş edildi ki, fövqəladə hüquqi müdafiə vasitəsindən istifadə edən tərəf, həmin tərəifin vəkillik fəaliyyəti ilə məşğul olduğu hallar istisna olmaqla, vəkillə təmsil olunmalıdır. | **SER / Masirevic (30671/08)**<br>**Yekun qərar: 11/05/20014**<br>***Yekun qətnamə CM/ResDH(2015)151*** |
| Bu iş kassasiya məhkəməsi tərəfindən vərəsəlik üzrə icraatda qərarın dəyişdirilməsi barədə ərizəçilərin vəsatətinin rədd edilməsi ilə əlaqədar idi və bu qərar belə əsaslandırılmışdı ki, ekspert tərəfindən müəyyən edilmiş faktiki dəyəri deyil, elan edilmiş ilkin dəyəri nəzərə alınmaqla əmlakın dəyəri qanunla müəyyən edilmiş həddə çatmayıb.<br>2016-cı ildə mövcud pozuntunun əsas səbəbi olan məhkəmə qərarında düzəliş etmə proseduru ləğv edildi. | **TÜR / Hasan Tunc və başqaları (19074/05)**<br>**Yekun qərar: 30/04/2017**<br>***Yekun qətnamə CM/ResDH(2018)188*** |

# 3. İddia müddətinin məhkəmələr tərəfindən qiymətləndirilməsi

**ERM / Mamikonyan (25083/05)**

**Yekun qərar: 04/10/2010**

**Yekun qətnamə CM/ResDH(2015)142**

Bu işdə Kassasiya Məhkəməsi işin konkret hallarına əhəmiyyət vermədən qısa əsaslandırma ilə ərizəçinin cinayət prosesində hüquqi məsələlər üzrə verdiyi şikayətinə sonradan əlavə etdiyi təqdimatları vaxtı keçmiş hesab edərək rədd etmişdi.
2009-cu ildə Cinayət-Prosessual Məcəlləsinə kassasiya məhkəməsinə hüquqi məsələlər üzrə şikayət vermə müddətlərinin uzadılması və apellyasiya icraatında əlavə təqdimatların verilməsi müddətləri ilə bağlı aydın qaydaların müəyyən edilməsi məqsədilə dəyişiklik edildi. Konstitusiya Məhkəməsinin və Kassasiya Məhkəməsinin presedent hüququ müvafiq olaraq təkmilləşdirildi. 2012-ci ildə Konstitusiya Məhkəməsi hazırkı qərara istinad edərək bəyan etdi ki, özbaşınalığın və hüquqi qeyri-müəyyənliyin qarşısını almaq üçün şikayət vermək hüququ olan şəxsdən asılı olmayan səbəblərdən buraxılmış müddətlərin axımı avtomatik olaraq sonradan bərpa edilir.
Kassasiya Məhkəməsi də eyni yanaşmadan istifadə edərək, apellyasiya şikayəti vermək üçün üzrlü səbəblərə görə buraxılmış müddətin axımının avtomatik olaraq bərpa olunacağını bildirdi və bu, 2021-ci il Cinayət Prosessual Məcəlləsində nəzərə alındı.

---

**BOL / Angel Angelov (51343/99)**

**Yekun qərar: 15/05/2007**

**Yekun qətnamə CM/ResDH(2013)153**

Bu iş ərizəçinin Ali Kassasiya Məhkəməsi tərəfindən cinayət işinə yenidən (kassasiya qaydasında) baxılması haqqında vəsatətinin bir məhkəmə səhvinə görə əsassız olaraq rədd edilməsinə aiddir. Avropa Məhkəməsi qeyd etdi ki, ərizəçinin vəsatətinin rədd edilməsi məhkəməyə müraciət etmək hüququnun məhdudlaşdırılmasına qanunla müəyyən edilmiş prosessual müddət məhdudiyyətinin tətbiqi ilə haqq qazandırıla bilən hal kimi qiymətləndirilə bilməz, belə ki, hakim şikayətin verilməli olduğu başlanğıc və ya bitmə tarixlərini göstərməyib ki, bunu da məhkəmə qərarlarının əsaslandığı səbəblərin adekvat şəkildə göstərilməsi tələbi ilə uzlaşdırmaq çətindir.
Cinayət işinə yenidən baxılması üçün vəsatət verilməsi 1998-ci il tarixli Cinayət Prosessual Məcəlləsi ilə tənzimlənirdi ki, həmin Məcəllənin qəbulu ilə məhkumluqdan və ittiham hökmlərindən şikayət verilməsi üzrə əvvəlki apellyasiya sistemində islahatlar aparılmışdı. 2012-ci ildə Ali Kassasiya Məhkəməsi baxılmaq üçün verilmiş vəsatətlərin rədd edilməsi ilə bağlı öz məhkəmə təcrübəsi barədə özünün bütün hakimlərinə ətraflı təlimatlar təqdim etmiş və belə qərarların təfərrüatlı şəkildə əsaslandırılmalı olduğunu vurğulamışdır. Müddətlərin səhv hesablanması kimi qeyri-dəqiqliklər aşkar edildikdə, maraqlı tərəf vəsatətin rədd edilməsi barədə qərarın ləğvi üçün Ali Məhkəmənin Cinayət Kollegiyasının sədrinə müraciət edə bilər.

---

**SVK / Franek (14090/10)**

**Yekun qərar: 11/05/2014**

**Yekun qətnamə CM/ResDH(2015)12**

**SVK / Kovárová (46564/10)**

**Yekun qərar: 23/09/2015**

**Yekun qətnamə CM/ResDH(2016)138**

Bu işlər aşağı instansiya məhkəmələrindəki icraatların iddia edilən ədalətsizliyi ilə bağlı ərizəçinin konstitusiya şikayətinin qanunla müəyyən edilmiş müddət ötürülməklə verilməsi səbəbindən Konstitusiya Məhkəməsi tərəfindən rədd edilməsinə aid idi, belə şikayət yalnız ərizəçinin hüquqi məsələlər üzrə şikayəti əvvəlcə Ali Məhkəmə tərəfindən rədd edildikdən sonra verilə bilərdi.
Fərdi tədbirlərə gəlincə, 2014-cü ildən etibarən Konstitusiyanın 133-cü maddəsi bu kimi mübahisələndirilən icraatların Konstitusiya Məhkəməsi tərəfindən təzələnməsinə imkan yaradırdı.
Konstitusiya Məhkəməsi konstitusiya şikayətinin verilməsi üçün qanunla müəyyən edilmiş müddətin hesablanması praktikasını Məhkəmənin bu qərardakı qənaətlərinə uyğun olaraq dəyişdi. Beləliklə, icraatın ədalətsizliyi ilə bağlı konstitusiya şikayətinin verilməsi üçün qanunla müəyyən edilmiş müddət təkcə hüquqi məsələlər üzrə verilmiş apellyasiya şikayəti üzrə qərara deyil, həm də barəsində hüquqi məsələlər üzrə apellyasiya şikayəti verilmiş aşağı instansiya məhkəməsinin qərarına şamil olunur.

---

| | |
|---|---|
| Bu işdə Kassasiya Məhkəməsi həbsdə olan ərizəçinin verdiyi şikayəti qəbuledilməz elan etmiş və belə əsas gətirmişdi ki, ərizəçinin yerinin "naməlum" olması səbəbindən andlılar məhkəməsinin qiyabi çıxarılmış hökmü Rəsmi Qəzetdə dərc edilmə yolu ilə təqdim olunduqdan sonra şikayət qanunla müəyyən edilmiş müddət ötürülməklə verilib.<br>2008-ci ildən etibarən elektron ədliyyə sisteminin tərkib hissəsi olan Milli Məhkəmə Şəbəkəsi İnformasiya Sistemi (UYAP) tam gücü ilə işləyir və ədalət mühakiməsi xidmətlərinin şəffaf, səmərəli, ən qısa müddətdə, ən az xərclə, etibarlı, obyektiv və yoxlanıla bilən şəkildə həyata keçirilməsini təmin edir. Şəbəkəyə onun fəaliyyət dairəsinə daxil olan bütün məhkəmələr, prokurorluq orqanları, həbsxanalar və digər müvafiq məhkəmə orqanları və qurumlar daxildir. | **TÜR / Davran (18342/03)**<br>**Yekun qərar: 03/02/2010**<br>***Yekun qətnamə CM/ResDH(2017)115*** |
| Bu iş Ali Hərbi Məhkəmənin ərizəçinin 1990-cı ildə hərbi xidmətə çağırış zamanı aldığı kəllə-beyin travmasına görə təzminat barədə iddia ərizəsinin qanunla müəyyən edilmiş müddət ötürülməklə verilməsi səbəbindən rədd edilməsinə aid idi, hərçənd ki, həmin travma yalnız 2007-ci ildə aparılmış tibbi müayinə zamanı aşkar edilmiş, imtina qərarı isə "Ali Hərbi İnzibati Məhkəmə haqqında" Qanunda nəzərdə tutulmuş beş illik müddətin həddindən artıq formal təfsiri əsasında qəbul edilmişdi.<br>2017-ci ildə konstitusiya dəyişikliyi ilə hərbi məhkəmələrin (Hərbi Kassasiya Məhkəməsi və Ali Hərbi İnzibati Məhkəmə də daxil olmaqla) yurisdiksiyası ləğv edildi və mülki inzibati məhkəmələr hərbi administrasiyaya aid olan işləri həll etmək səlahiyyəti əldə etdilər. Şəxsin xəsarət alması ilə bağlı işlərə gəldikdə, Ali İnzibati Məhkəmə artıq öz presedent hüququnda Avropa Məhkəməsinin presedent hüququna uyğun olaraq "zərərçəkənin zərərin nəticələrini qiymətləndirmək imkanı əldə etdiyi tarixə" istinad edir.<br>Fərdi tədbirlərə gəlincə, təzələnmiş icraatda ərizəçiyə dəymiş ziyana görə qismən kompensasiya verilmişdir. | **TÜR / Esim (59601/09)**<br>**Yekun qərar: 17/12/2013**<br>***Yekun qətnamə CM/ResDH(2019)105*** |
| Bu iş neft partlayışı nəticəsində əmlakına ziyan vurulduqdan sonra ərizəçinin Öhdəliklər Məcəlləsinə əsasən irəli sürdüyü kompensasiya tələblərinin bir illik iddia müddəti bitdikdən sonra təqdim edilməsi səbəbindən Kassasiya Məhkəməsi tərəfindən rədd edilməsinə aid idi, hərçənd ki, hadisədən dərhal sonra onun səbəbi və mənşəyi barədə məlumatlar sadəcə fərziyyələrlə məhdudlaşırdı.<br>2012-ci il tarixli Öhdəliklər Məcəlləsində dəyişiklik edilərək qanunla müəyyən edilmiş müddət zərərə məruz qalan şəxsin itki, zədə və ya xəsarətdən və buna görə məsuliyyət daşıyan şəxsin kimliyindən xəbər tutduğu tarixdən başlayaraq iki ilədək uzadıldı və istənilən halda, hadisədən sonra on il ərzində iddia qaldırmaq olardı. Fərdi tədbirlərə gəlincə, təzələnmiş məhkəmə icraatı sayəsində ərizəçiyə dəymiş maddi ziyana görə kompensasiya verildi. | **TÜR / Kursun (22677/10)**<br>**Yekun qərar: 30/01/2019**<br>***Yekun qətnamə CM/ResDH(2022)424*** |
| Bu iş məhdud məsuliyyətli şirkətin məhkəməyə müraciət etmək hüququnun əsassız məhdudlaşdırılmasına aid idi və bunun səbəbi ondan ibarət idi ki, Ali Kommersiya Məhkəməsi həddindən artıq formalizmə yol verib ərizəçi şirkətin hüquqi məsələlər üzrə şikayətinə baxmaqdan imtina edərək ərizəçi şirkətin iddia müddətinin uzadılması üçün məhkəməyə müraciət etmədiyini əsas gətirməklə şikayəti qəbuledilməz hesab etmişdi, halbuki müddətin uzadılması barədə vəsatət məhkəmə rüsumlarının tam ödənilməsindən sonra apellyasiya şikayətini yenidən təqdim etmiş ərizəçi şirkətin şikayətə əlavə etdiyi məktubda təqdim edilmişdi.<br>2017-ci ildə Ali Kommersiya Məhkəməsi Məhkəmənin qərarını aşağı instansiya məhkəmələrinə, eləcə də Ali Məhkəmənin Kommersiya İşləri üzrə Məhkəmə Palatasının hakimlərinə çatdırdı. 2017-ci ildə məhkəmə-hüquq sistemində aparılan ümumi islahatların daha geniş kontekstində bir sıra prosessual məcəllələr, xüsusən də indi kassasiya şikayətləri və müddətlərin uzadılması tələbləri üçün aydın prosessual tələbləri nəzərdə tutan Kommersiya Prosessual Məcəlləsi yeniləndi. | **UKR / Frida, LLC (24003/07)**<br>**Yekun qərar: 08/03/2017**<br>***Yekun qətnamə CM/ResDH(2018)190*** |

# 4. Məhkəmə rüsumlarının ödənilməsi

Bu işlər qrupu zərərin kompensasiyası ilə bağlı ərizəçilərin mülki iddialarına mahiyyəti üzrə baxmaqdan milli məhkəmələrin əsassız imtina etməsi ilə əlaqədar idi və imtina üçün belə əsas gətirilmişdi ki, məhkəmə rüsumları ödənilməyib, ödənişin qismən azaldılması və ya ödəniş üçün möhlət verilməsi barədə xahiş də təmin edilməyib, hərçənd ki, ərizəçilərin maddi vəziyyətinin qiymətləndirilməsi üçün məhkəmələrə adekvat məlumatlar təqdim edilmişdi.
Hazırkı işlərdə aşkar edilmiş çatışmazlıqlar milli məhkəmələrin presedent hüququnda təsadüf edilən ayrı-ayrı hallardır. Ali Məhkəmənin İHAK-a uyğun presedent hüququna dair son nümunələr təqdim edilmişdir. Qaldırılan məsələlər həmçinin Ədliyyə Nazirliyi və Ali Məhkəmənin nümayəndələri tərəfindən müzakirə olunub. Hər iki məhkəmə qərarı Hakimlərin Təlim Mərkəzinin tədris proqramlarına daxil edilib.

**LAT /Blumberga işlər qrupu (70930/01)**

**Yekun qərar: 14/01/2009**

*Yekun qətnamə CM/ResDH(2015)124*

---

Bu iş ərizəçinin dairə məhkəməsinin qərarından şikayətinin Dairə Məhkəməsi tərəfindən rədd edilməsi səbəbindən məhkəməyə müraciət etmək imkanının olmaması ilə bağlı idi, imtina qərarı belə əsaslandırılmışdı ki, ərizəçi məhkəmə rüsumunu qanunla müəyyən edilmiş müddətdə ödəməyib, halbuki ödəniş vaxtında həyata keçirilmişdi.
Hazırkı işdə pozuntunun milli məhkəmələrin qeyri-adekvat davranışının nəticəsi olduğu nəzərə alınaraq, Məhkəmənin qərarının yayılması aşkar edilmiş problemli aspektləri aradan qaldırmaq üçün yetərli hesab edilmişdir.

**RUM / Hietsch (32015/07)**

**Yekun qərar: 23/12/2014**

*Yekun qətnamə CM/ResDH(2015)129*

---

## 5. Kargüzarlıq səhvləri

Bu işlər kassasiya məhkəməsi də daxil olmaqla cinayət məhkəmələrindəki icraatlarda ərizəçilərin şikayətlərinin həddindən artıq formal əsaslar gətirilməklə qəbuledilməz sayılaraq rədd edilməsi səbəbindən məhkəməyə müraciət hüququnun rədd edilməsi ilə bağlı idi. Konkret olaraq Kallergis işi onunla əlaqədar idi ki, Kassasiya Məhkəməsi dəftərxana məmurunun səhvi ucbatından şikayətin qeydə alınması barədə məlumatın olmadığını müəyyən etmişdi. Ərizəçinin məhkəməyə müraciət etmək hüququnun pozulduğunu müəyyən edən Məhkəmənin qərarından sonra ərizəçinin kassasiya şikayətinə mahiyyəti üzrə baxıldı və təzələnmiş icraatda həmin şikayət rədd edildi. 2018-ci ildə Kassasiya Məhkəməsinin sədri tərəfindən sirkulyar (təlimat məktubu) qəbul edildi və həddindən artıq formalizmə yol verilməməsi üçün şikayətlərin qəbuledilməz elan olunmasının əsaslarının təfsirinə dair təlimatlar bütün cinayət məhkəmələrinin hakimlərinə ünvanlandı. 2021-ci ildə Cinayət Prosessual Məcəlləsində dəyişiklik edilərək nəzərdə tutuldu ki, məlumatların tərtibinə cavabdeh olan dəftərxana məmurunun yol verdiyi nöqsanlar və buraxdığı səhvlər şikayətin qəbuledilməzliyi üçün əsas yaratmır. Şikayətçi və ya onun vəkili rəsmiyyətə əməl etmədikdə, səlahiyyətli prokuror onları müəyyən müddət ərzində izahat verməyə və ya səhvlərini düzəltməyə dəvət etməyə borcludur. 2021-ci il tarixli dəyişikliyə dair İzahedici məruzədə hazırkı qərara birbaşa istinad edilir. Vamvakas işlər qrupuna gəldikdə, 2019-cu il tarixli Cinayət Prosessual Məcəlləsi ya barəsində şikayət verilən qərarı qəbul etmiş məhkəmənin dəftərxana məmuruna ərizə vermək yolu ilə, ya da şikayətin səbəblərini əks etdirən sənəd təqdim etməklə apellyasiya şikayəti vermək imkanını nəzərdə tutur.

**YUN / Kallergis (37349/07)**

**Yekun qərar: 02/07/2009**

***Yekun qətnamə CM/Reds(2022)124***

**YUN / Vamvakas işlər qrupu (36970/06)**

**Yekun qərar: 16/01/2009**

***Yekun qətnamə CM/ResDH(2021)380***

## 6. Həbslə bağlı həddindən artıq formal qərarlar

Bu iş apellyasiya instansiyası məhkəməsinin ərizəçilərin həbslə bağlı verdiyi şikayətlərə baxmaqdan imtina etməsi ilə əlaqədar idi, imtina qərarı üçün yeganə əsas ondan ibarət idi ki, cinayət işi artıq məhkəməyəqədər mərhələdə olan iş hesab edilmir və artıq məhkəməyə göndərilib. Məhkəmə müəyyən etdi ki, həbslə bağlı verilmiş şikayətə baxmaqdan imtina edilməsi apellyasiya məhkəməsinə müraciət hüququnun daxili qanunvericilikdə nəzərdə tutulmayan səbəblərdən əsassız olaraq rədd edilməsidir.
2008-ci ildə işin faktları müəyyən edildikdən sonra Kassasiya Məhkəməsi öz presedent hüququnda dəyişiklik edərək qərara aldı ki, apellyasiya hüququ sadəcə olaraq şikayətin məhkəmə nəzarəti qaydasında deyil, məhkəməyqədər icraat çərçivəsində və ya iş üzrə məhkəmə icraatı zamanı verilməsi səbəbindən məhdudlaşdırıla bilməz. 2022-ci il tarixli Cinayət Prosessual Məcəlləsində bu məsələ xüsusi müddəa vasitəsilə həll olundu.

**ERM /Poghosyan işlər qrupu (44068)**

**Yekun qərar: 20/03/2012**

***Fəaliyyət hesabatı DH-DD(2014)326***

---

Bu iş polis tərəfindən qeyri-qanuni inzibati həbslə əlaqədar mənəvi zərərin ödənilməsinə dair iddianın rədd edilməsinə aid idi, imtina qərarı belə əsaslandırılmışı ki, ərizəçilərin mənəvi ziyana məruz qalması kifayət qədər dəlillərlə, xüsusən də tibbi ekspertiza rəyi təqdim edilməklə sübuta yetirilməyib, Məhkəmə qərara aldı ki, inzibati məhkəmələr "*affirmanti incumbit probatio*" ("hər hansı iddianı sübut etmək vəzifəsi onu irəli sürmüş tərəfin üzərinə düşür") prinsipinə ciddi şəkildə riayət edərək, qərara alıblar ki, bu iş eyni məhkəmələrin qeyri-qanuni həbs faktının mənəvi ziyana səbəb olması kimi qiymətləndirdiyi digər işlərdən tamamilə fərqlənir və bu, İHAK-ın 5-ci maddəsinin 5-ci bəndinə əsasən düzgün yanaşmadır.
Məhkəmə tərəfindən müəyyən edilmiş “düzgün yanaşmanın” milli məhkəmələr tərəfindən tətbiqini təşviq etmək üçün hökumaıt tərəfindən bu barədə məlumat Ali İnzibati Məhkəməyə göndərildi, həmin məlumatda vurğulanırdı ki, bu yanaşma nəzərə alınmaqla daxili məhkəmə təcrübəsinin vahidləşdirilməsi zəruridir.

**BOL / Dzhabarov və başqaları (6095/11)**

**Yekun qərar: 30/06/2016**

***Yekun qətnamə CM/ResDH(2017)362***

---

# İŞLƏRİN SİYAHISI

**ERM / Mamikonyan**........................................................8
**ERM / Paykar Yev Haghtanak**..........................................3
**ERM / Shamonyan**........................................................3
**ERM /Poghosyan işlər qrupu**.........................................12
**BEL / L'Erablière A.S.B.L.** ...................................................4
**BOL / Angel Angelov**.......................................................8
**BOL / Dzhabarov və başqaları**........................................12
**XOR / Buvač**......................................................................4
**KİP / Savvides**................................................................4
**İSP / Gil Sanjuan**............................................................4
**İSP / Stone Court Shipping Company, S.A. işlər qrupu**.......5
**FRA / Duceau**..................................................................5
**FRA/ Henrioud**................................................................5
**YUN / Alvanos və başqaları**.............................................6
**YUN / Kallergis**...............................................................11
**YUN / Liakopoulou**.........................................................5
**YUN / Peca (№ 2)**.......................................................... 3
**YUN / Vamvakas işlər qrupu**..........................................11
**İTA / Succi və başqaları**.................................................. 6
**LÜK / Kemp və başqaları işlər qrupu**................................ 6
**LAT /Blumberga işlər qrupu**...........................................10
**RUM / Hietsch**..............................................................10
**SER / Masirevic**............................................................. 6
**SVK / Franek**..................................................................8
**SVK / Kovárová**..............................................................8
**TÜR / Davran**..................................................................9
**TÜR / Esim**......................................................................9
**TÜR / Hasan Tunc və başqaları**....................................... 6
**TÜR / Kursun**..................................................................9
**UKR / Frida, LLC**..............................................................9